

**AĞABƏY ƏSGƏROV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İNKİŞAFI

## Giriş

Azərbaycanın milli inkişafı Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyevin adı ilə bağlıdır. XX-XXI yüzilliklərdə Azərbaycanın bütün sahələrdə inkişafı məhz Azərbaycanın ümummilli lideri, tarixi şəxsiyyəti, dahi siyasət və dövlət xadimi Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyi sayəsində mümkün olmuşdur. Azərbaycan tarixinin geniş anlamda dirçəliş, tərəqqi, inkişaf epoxası - Heydər Əliyev epoxası 1969-cu il iyulun 14-dən etibarən başlayır.

## I. 1969-1982: Müstəqil Azərbaycan dövlətinə doğru aparan milli inkişaf yolu.

1969-cu il iyulun 14-də cənab Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə seçildi. Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətində öz milli liderini, böyük vətəndaşını, tarixi şəxsiyyətini, qurucusunu, dahi siyasətçisini və dövlət xadimini tanıdı.

Heydər Əliyev Azərbaycanı idarə etməyə başlayanda müdrik uzaqgörənliklə başa düşürdü ki, mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında əsas vasitə iqtisadiyyatın tezliklə dirçəldilməsidir. Bu istiqamətdə görülən işlər nəticəsində ümumi sənaye məhsul istehsalının həcmi 1980-ci ildə 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər artdı. Məsələn, maşınqayırma kompleksində 1980-ci illərdə istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində 4 dəfədən çox artmışdı. Belə ki, sənayenin quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1 faizdən 1982-ci ildə 16,4 faizə, kimya və neft-kimya, meşə sənayesi kompleksi müvafiq qaydada 4,1 faizdən 8,7 faizə, tikinti materialları sənaye kompleksi 2,7-dən 3,2 faizə, yeyinti sənaye kompleksi 15,3-dən 31,3 faizə qalxdı. Azərbaycanda müasir texnologiyaya əsaslanan neft emalı üzrə yeni güclü qurumların yaradılması nəticəsində Azərbaycan neft sənayesi və neft emalı daha da inkişaf etdi. Məhz, o illərdə Xəzər dənizi hesabına Azərbaycanın neft sənayesinin gələcək inkişafını nəzərə alaraq, daha bir mühüm tədbir həyata keçirildi: Bakıda nəhəng Dərin Dəniz Özülləri zavodu tikildi. Ümumiyyətlə, 1969-1982-ci illərdə respublikada irili-xırdalı 313 yeni sənaye mü-

əssisəsi tikilib, istifadəyə verildi ki, bu da 1955-1969-cu illərdə yaradılmış müəssisələrdən (129) 70 faiz çox olmuşdur.

Azərbaycan iqtisadiyyatının çox mühüm sahəsi olan kənd təsərrüfatının inkişafında da çox böyük nailiyyətlər əldə edildi. Əkinçiliyin ayrı-ayrı sahələrində məhsul istehsalının həcmi xüsusilə böyük miqdarda artdı. Məsələn, 1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə artmışdı. 1966-1969-cu illərə nisbətən orta illik məhsul istehsalı taxılçılıqda 1,7 dəfə artaraq 1240 min tona, tərəvəzçilikdə 2,4 dəfə artaraq 890 min tona, pambıqçılıqda 2,6 dəfə artaraq 861 min tona, tütünçülükdə 2,7 dəfə artaraq 57 min tona, çayçılıqda 3,2 dəfə artaraq 29 min tona, meyvəçilikdə 3,8 dəfə artaraq 318 min tona, üzümçülükdə 7,9 dəfə artaraq 1830 min tona çatmışdı. Başqa bir fakt: 1969-cu ildə 299 min ton pambıq, 272 min ton üzüm istehsal edilmişdisə, bu göstərici 1982-ci ildə pambıq üzrə bir milyon tona, üzümçülük üzrə isə 1 milyon 816 min tona çatmışdı.

Uğurlu təşəbbüslərdən biri Azərbaycan ərazisinin Şimal-Qərb hissəsinin Bakı-Tbilisi dəmir yolu magistralı ilə birləşdirən Yevlax-Balakən (uzunluğu 162 km.) xəttinin tikilib istifadəyə verilməsi oldu. Bu yolun tikilməsi Azərbaycan ərazisinin böyük bir hissəsini respublikanın ümumi dəmiryol şəbəkəsinə qovuşdurmaqla yanaşı, böyük həcmlərdə xalq təsərrüfatı yüklərinin vaxtında və səmərəli daşınmasına əlverişli şərait yaratdı. O dövrdə Ağdam-Xankəndi və digər dəmiryol xətləri də tikilib istifadəyə verildi. Ümumiyyətlə, 1970-80-ci illərdə respublikada dəmiryol xəttlərinin uzunluğu 257 kilometr artdı. Bu dövrdə tikilib istifadəyə verilən asfalt yollarının uzunluğu isə 20,4 min kilometrə çatdı.

O illərdə Azərbaycan nəhəng tikinti meydançasına çevrilmişdi. Faktlara və rəqəmlərə müraciət edək. Təkcə 1971-1982-ci illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilibdir. Bakının, Sumqayıtın, Gəncənin bir sıra nəhəng yaşayış massivləri, o cümlədən Əhmədli, Günəşli, Yeni Əhmədli, Yeni Günəşli, mikrorayonlar məhz həmin illərdə salınmışdır. Paytaxtın abadlaşdırılması və yaşıllaşdırılması böyük abadlıq və quruculuq siyasətinin tərkib hissəsi idi. Bakıda adambaşına yaşıllıq sahəsi 1970-ci ildəki 5 kv.metrdən 1981-ci ildə 23 kv.metrə çatdırıldı, on bir ildə şəhərin yaşıl örtüyü 5 dəfədən çox artdı.

Bakıda 1969-1982-ci illərdə geniş miqyaslı şəhərsalma və tikinti işləri aparılmışdır. Mənzil tikintisindən və yaşayış massivlərinin salınmasından başqa, paytaxtda "Abşeron", "Moskva", "Azərbaycan", "Təbriz" kimi nəhəng və tanınmış mehmanxanaları, Respublika Sarayı, "Gülüstan" Sarayı, Prezident iqamətgahı, Milli Məclisin binası, Respublika İdman-Konsert Kompleksi, Əl Oyunları İdman Sarayı, onlarla inzibati binalar, mədəniyyət klubları tikilib istifadəyə verilmiş, tarixi şəxsiyyətlərə, milli qəhrəmanların xatirəsinə abidələr qoyulmuşdur. Həmin dövrdə metropolitenin "Gənclik", "Nərimanov", "Nizami", "Əzizbəyov", "Qara Qarayev", "Neftçilər" və başqa stansiyaları inşa edilmişdir. Bir sözlə, 1969-1982-ci illərdə Bakıda aparılan geniş miqyaslı və nəhəng tikinti-quruculuq,



abadlaşdırma və şəhərsalma tədbirləri Azərbaycanın milli inkişafı tarixinə qızıl hərflərlə yazılmış dövrdür.

1969-1982-ci illər ərzində elm, təhsil, mədəniyyət tikililərinə xüsusi diqqət ayrılmışdır. 1969-1982-ci illərdə aparılmış tikinti işlərinin nəticəsində kütləvi kitabxanaların sayı 2853-dən 4008-ə, mədəniyyət klublarının sayı 1985-dən 3301-ə, muzeylərin sayı 38-dən 82-yə, kino qurğularının sayı 1903-dən 2317-ə çatmışdır. Bu dövrdə 1155 kitabxana, 1316 klub, 44 muzey yaradılmışdır. Həmin tikintilər sayəsində respublikada maarif-mədəniyyət işi inkişaf etmişdir.

XX əsrdə Azərbaycan xalqının milli inkişafının çox mühüm tərkib hissəsi və vacib amili məhz milli təhsil olmuşdur ki, bu sahə də məhz cənab Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində mükəmməl və mütərəqqi sistem kimi inkişaf edibdir. Faktlara müraciət edək: 1969-1982-ci illərdə 445,2 min şagird yeri olan 849 ümumtəhsil məktəb binası, 660 yerlik 3 internat məktəbi, 12 orta ixtisas məktəbi tikilmiş və təhsil ocağı kimi fəaliyyətə başlamışdır. Əgər 1970-ci ildə 7,9 milyon nüsxə kitab fondu olan 3749 məktəb kitabxanası var idisə, 1981-ci ildə kitabxanaların sayı 4238-ə, kitab fondu isə 25,2 milyon nüsxəyə çatmışdır. Bu illərdə 47 tədris müəssisəsinə peşə litseyi, 69-na isə peşə məktəbi statusu verilmişdir.

Həmin dövrdə təhsilin inkişafında ali təhsil sistemindəki nailiyyətlər xüsusi yer tutur. Ali təhsil şəbəkələri genişlənmiş, 100-dən artıq yeni kafedra, 40-dan artıq yeni fakultə yaradılmış, 100-dək yeni ixtisas üzrə mütəxəssis hazırlığına başlanılmışdır. Heydər Əliyevin bilavasitə təşəbbüsü və səyi ilə həmin dövrdə 6 yeni ali məktəb yaradılmışdır: Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutu (1973), Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı institutu (1973), Stepanakert Dövlət Pedaqoji İnstitutu (1975), Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutu (1980), Gəncə Dövlət Texnologiya İnstitutu (1981), Naxçıvan Dövlət Pedaqoji İnstitutu (1981). Həmin dövrdə ali məktəblərin sayı 12-dən 17-yə, tələbələrin sayı isə 100 minə çatmışdı.

1970-ci illərdən başlayaraq, Heydər Əliyevin təşəbbüsü və səyi ilə hər il yüzlərlə azərbaycanlı gənc SSRİ-nin nüfuzlu, tanınmış ali təhsil ocaqlarına göndərilirdi. Bununla da Azərbaycanın gələcəyi üçün mütəxəssis, kadr potensialı hazırlanırdı. Ümumilikdə, SSRİ-nin nüfuzlu ali məktəblərində 240 ixtisas üzrə on beş min gənc təhsil almışdır. Digər tərəfdən, bu, Azərbaycan gənclərinin gələcəyinə göstərilən qayğı və vətənin gələcək problemlərinin həllinə yaradılan potensial imkan idi.

Heydər Əliyevin 1969-1982-ci illərdəki rəhbərliyinin ən tarixi əhəmiyyətli, ən mühüm nailiyyətlərindən biri Azərbaycançılıq məfkurəsinin, milli özünüdərkin inkişafı oldu. Milli mənafelər üzərində qurulan Heydər Əliyev idarəçiliyi sayəsində Azərbaycan rus şovinizminin manqurtlaşma siyasətinin və imperiyanın sovet beynəlmiləlçiliyi təbliğatının təsirindən tədricən xilas oldu. Bundan başqa Heydər Əliyevin mədəniyyətə, incəsənətə olan qayğısı, sənət adamlarının əməyinə yüksək qiymət verməsi, onun təşəbbüsü sayəsində o illərdə Azərbaycanın mədəniyyət xadimlərinə SSRİ-nin ən yüksək fəxri adları təqdim olunmuşdu. Bütün bu diqqət və qayğı həm yaradıcı şəxsiyyətlər üçün yaradıcılıq ilhamı olmuş,

həm Azərbaycan mədəniyyətinin inkişafına xidmət etmiş, həm də Azərbaycan milli şüurunun inkişafına güclü təsir göstərmişdir.

Xalqın tarixinin qəhrəmanlıq səhifələrinə, milli ənənələrə, söykökümüzə xalq arasında, xüsusilə də ziyalılar içərisində maraq artmışdı. Gizli, bir çox hallarda açıq şəkildə milli dəyərlər öyrənilir və təbliğ olunurdu. Bədii ədəbiyyatda və incəsənət sahələrində xalqımızın keçmiş tarixi, qəhrəmanlıq səhifələri, tarixi şəxsiyyətləri, görkəmli xadimləri, milli-mənəvi keyfiyyətləri haqqında əsərlər yazıldı. Elmlər Akademiyasında işləyən alimlər tərəfindən xalqımızın etnogenezinin öyrənilməsi, Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin fəaliyyəti və s. bu kimi əsaslı tarixi məsələlərə obyektiv elmi qiymət verilməsi, eləcə də etnik-milli mədəniyyətin, folklorun, xalq sənətlərinin təbliğatı, elmi şəkildə araşdırılması gündəliyə çıxarıldı.

Yeri gəlmişkən, Heydər Əliyevin bütün xalq qarşısındakı böyük bir xidmətini, onun vətəndaşlıq nümunəsi göstərməsini də qeyd edək: 1981-ci ildə müasir dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri, Azərbaycanın dahi ədib-filosofu və dramaturqu Hüseyn Cavidin yubileyi ilə bağlı rəsmi sərəncam imzaladı və 1982-ci ildə bu şəxsiyyətin qərib cəsədini uzaq Sibirdən vətəninə - Azərbaycana gətirərək, onun Naxçıvanda dəfn olunmasını və məqbərəsinin tikilməsini təşkil etdi. Heydər Əliyevin azərbaycançılıq naminə xalqı qarşısında böyük tarixi xidmətlərindən biri də onun Azərbaycan dilinə göstərdiyi diqqət və qayğıdır. Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan dili respublikanın Konstitusiyasında dövlət dili kimi təsbit edilmiş və tətbiq olunmağa başlanmışdır.

Heydər Əliyevin Azərbaycanda 1969-cu ildən başlanan siyasi rəhbərliyi sayəsində əldə edilmiş fundamental iqtisadi və sosial inkişaf, iqtisadiyyat sahələrinin uyğunlaşdırılmış, sistemli və kompleks inkişafı son nəticədə Azərbaycan xalqının milli-mənəvi oyanışına, milli mənlik şüurunun, milli özünüdərkin inkişafına zəmin yaratmış, bu da öz növbəsində milli müstəqqillik, Azərbaycançılıq, dövlətçilik şüurunun formalaşması və inkişafına səbəb olmuşdur. Tam məsuliyyətlə demək olar ki, 1969-1982-ci illər Azərbaycan xalqını 1980-cı illərin möhtəşəm milli-azadlıq hərəkatına ideya-mənəvi, milli-psixoloji cəhətdən hazırlamış, hərəkatın milli ziyalı, milli düşüncə potensialını yaratmışdır.

## II. 1982-1990, 1990-1993: XALQ-HEYDƏR birliyinin tarixi qələbəsi

Heydər Əliyevin siyasi bioqrafiyasında, ikinci və şərəfli mərhələ, bildiyimiz kimi, 1982-ci ildən başlayır. Həmin vaxtdan etibarən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Heydər Əliyev bütün SSRİ-nin iqtisadiyyatının, sosil həyatının idarə olunmasına rəhbərlik edirdi. Bundan başqa, Heydər Əliyev öz işində yüksək idarəçilik keyfiyyətləri, yüksək peşəkarlıq və mənəvi keyfiyyətlər nümayiş etdirməklə həm də Azərbaycan xalqına baş ucalığı gətirir, xalqımızı təkcə SSRİ-də yox, həm də dünya miqyasında tanıdır, layiqincə təmsil edirdi. Onun Azərbaycana gətirdiyi şöhrət, inkişaf, bütün SSRİ-də daha çox sevilməsi və nüfuz qazanması, əlbəttə, o illərdə tarixi düşmənlərimiz olan ermənilələri çox narahat edir, sarsıdırdı. Mümkün qədər Heydər Əliyevə qarşı Kremldə manеələr, süni problemlər yaratmağa çalışır, onun vəzifədən uzaqlaşdırılması üçün bütün vasitələrdən istifadə edirdilər.



1980-ci illərin ortalarından etibarən Heydər Əliyev Moskvada SSRİ rəhbərliyinin şovinist, siyasi-repressiv təqib və təzyiqlərilə üzləşdi. Bu da təsadüfi deyildi. Hakimiyyətə M. Qorbaçov gəlmişdi. Onun ətrafı ermənipərəst siyasətçilərlə, erməni iqtisadçıları, tarixçiləri, ideoloqları ilə dövrələnmişdi. Digər tərəfdən, M.Qorbaçov Heydər Əliyevin idarəetmə təcrübəsinin, dövlətçilik istedadının, bütün SSRİ-də siyasi nüfuzunun yüksək olduğunu bilir və ona qısqanclıqla yanaşırdı. Moskvanın siyasi ideoloqları və SSRİ-nin rəhbərləri olan səlahiyyətli dövlət adamları Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi formalaşmasının inkişafının qarşısını maksimum səylə almaq istəyirdilər. Bu məqsədlə də Heydər Əliyevi siyasi meydandan fiziki və mənəvi cəhətdən yox etməyə və onun siyasi məhvinə nail olmağa çalışırdılar. Çünki bilirdilər ki, Azərbaycan xalqını gələcək milli müstəqilliyə, milli inkişafa çatdıra biləcək yeganə ümummilli lider Heydər Əliyevdir. Lakin bütün təqib və təzyiqlərə, repressiyalara baxmayaraq, Heydər Əliyevin siyasi məhvinə nail olmaq xalqımızın düşmənlərinə və onların respublikadakı əlaltılarına nəsib olmadı.

Ötən əsrin 80-ci illərinin ortalarında baş qaldıran milli-azadlıq hərəkatı məhz xalqın öz milli lideri ilə qovuşa bilmədiyindən böyük fiziki, mənəvi itkilərlə üzləşdi, respublikanı siyasi, iqtisadi, sosial və mənəvi tənəzzül bürüdü, ən acınacaqlısı isə xalqımız 1990-cı ildə Qanlı Yanvar faciəsinə, torpaq itkilərinə, Qarabağın işğalına, soyqırıma məruz qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə M.Qorbaçov öz ətrafındakı erməni və rus şovinistlərinin dəstəyi ilə Azərbaycandakı milli-azadlıq hərəkatını boğmaq və Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirmək məqsədilə Bakıda hərbi-silahlı qırğın törədəndə, Moskvada, KİV qarşısında açıq şəkildə bu vəhşi soyqırıma etiraz bəyanatı verən, bu hadisəyə ilk siyasi qiymət verəndə məhz Heydər Əliyev oldu. Özünün təqib olunduğu bir vaxtda Heydər Əliyev milli mövqeyinə sədaqətli qalaraq heç nədən qorxmadan Qorbaçovun qanlı qırğınını pislədi, ona siyasi etiraz etdi. O vaxtlar ağır faciədən təsirlənmiş və yas içində olan xalqımız Heydər Əliyevin bu cəsarətli mövqeyindən özünə siyasi və mənəvi dayaq taparaq, mübarizə meydanında tək olmadığını bir daha yəqin etdi, Heydər Əliyev kimi milli liderlə milli-azadlıq hərəkatını qələbə ilə başa vuracağına qəti inandı.

* * *

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan illəri (1990-1993) qısa olsa da, onun siyasi bioqrafiyasında, Azərbaycanın siyasi, dövlətçilik tarixində ən parlaq səhifə-

lərdən birini təşkil edir. O illərdə Naxçıvan ağır iqtisadi blokada, siyasi və hərbi təzyiqlər şəraitində yaşasa da, Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməsi sayəsində burada sabitlik əldə olundu, əhali arasında ictimai-siyasi həmrəylik yarandı, iqtisadi, sosial vəziyyətin yaxşılaşdırılması istiqamətində konkret addımlar atıldı, yaxın xarici ölkələrlə iqtisadi yardım əlaqələri quruldu. Başlıcası isə, o illərdə Naxçıvan Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində, milli-azadlıq və milli dövlət quruculuğu işində konkret addımlar ataraq, bütün respublika üçün nümunə rolunu oynadı.

Ali Sovetin deputatı seçilən Heydər Əliyev 1991-1992-ci illərdə bu ali orqanın tribunasından Azərbaycanı siyasi, iqtisadi, sosial böhranlardan, vətəndaş qarşıdurmasından xilas etməyin yollarını göstərir, Dağlıq Qarabağ probleminin həlli üçün təkliflər bildirirdi. O illərdə Heydər Əliyevə qarşı siyasi kampaniya aparan qüvvələr bu şəxsiyyətin xalq arasındakı böyük nüfuzundan qorxaraq onun qiymətli fikirlərini, xalqa ünvanlanmış çağırışlarını əhəmiyyətsiz kimi qələmə verməyə çalışırdılar. Lakin Heydər Əliyev özünün milli lider mövqeyindən bir addım da kənara çəkilməyərək, daim xalqın milli müstəqillik uğrunda mübarizəsini dəstəkləyir, xalqda qələbəyə və gələcəyə inam yaratmağa çalışırdı.

Xalq Heydər Əliyevə etimad və inam bəsləyirdi, respublikaya rəhbərlik etməsini istəyirdi. Heydər Əliyevin qanuni yolla, xalqın mütləq çoxluğunun səsi ilə siyasi rəhbər seçiləcəyinə tam əmin olan antiəliyevçi (antimilli) qüvvələr isə ümumxalq dəstəyindən, ümumxalq məhəbbət və etimadından təşvişə düşərək, müxtəlif qanunsuz üsullarla Heydər Əliyevin hakimiyyətə gəlməsinin qarşısını alırdılar. Bunlardan biri də konstitusiyaya əlavə edilən yaş məhdudiyyəti haqqında bənd idi. Lakin bütün bu manеələrə baxmayaraq, Azərbaycan xalqı öz iradəsindən və milli liderinə olan inam və məhəbbətindən dönmədi. Xalqın Heydər Əliyevə ümummilli lider münasibətinin, böyük siyasətçi və dövlət xadimi kimi inam və etimadının nəticəsi kimi 1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycanın vətənsevər ziyalılarının iştirakı ilə Yeni Azərbaycan Partiyası yaradıldı və Heydər Əliyev partiyanın sədri seçildi. Qısa zaman ərzində Azərbaycanın demək olar ki, bütün bölgələrində YAP-ın rayon, şəhər təşkilatları yarandı və aktiv fəaliyyətə başladı, YAP 1992-ci illərin sonu-1993-cü ilin birinci yarısında artıq ümumxalq partiyasına çevrildi və özünü respublikanın siyasi həyatında güclü lideri, güclü sosial bazası, güclü elektoratı, real milli quruculuq proqramı olan ən demokratik partiya kimi təsdiqlədi. Yeni Azərbaycan Partiyası öz liderinin ümumxalq etimadı və nüfuzu, onun hazırladığı proqramı həyata keçirməsi sayəsində möhtəşəm, monolit XALQ-HEYDƏR birliyinin siyasi ifadəsinə, xalqın milli-siyasi iradəsinin ifadəçisinə çevrildi.

### III. 1993-2003: Müstəqil Azərbaycan dövlətinin quruculuğu və inkişafı

1992-ci ilin ortalarında qanunsuz yolla hakimiyyətə gələn AXC-Müsavat iqtidarı özündən əvvəlki hakimiyyətlərdən miras qalan böhranları daha da dərinləşdirərək, respublikanı daha acınacaqlı vəziyyətə saldı. Başları paytaxtda vəzifə davalarına, rüşvətə, separat danışıqlara, ambisiyalarının təmin olunmasına qarışan AXC-Müsavat "bəy"lərinin cəmi birillik hakimiyyətləri ərzində ölkədə siyasi vakuum yarandı, özbaşınalıqlar, vətəndaş qarşıdurması, milli ədavət baş qaldırdı. Ölkə iqtisadiyyat, sosial, elm, təhsil və mədəniyyət sahələrində idarəsizliyə, tənəzzülə doğru sürükləndi. Bir tərəfdən respublikanın ağır və fəlakətli iqtisadi, sosial, mənəvi-psixoloji durumu, bir tərəfdən baş alıb gedən qanunsuzluq, o biri tərəfdən siyasi destabillik, hər bir partiyanın, təşkilatın öz hərbi-silahlı dəstəsini yaratması, digər tərəfdən isə, xarici məkrli qüvvələrin Azərbaycana əl uzadaraq ölkəni parçalamağa cəhd etmələri, antiazərbaycançı qüvvələrin fəallaşması və "TMR", "Gəncə hadisələri" kimi separatçı maraqlara xidmət edən qanunsuz əməllərin baş verməsi Azərbaycanı milli müstəqilliyin məhv olması təhlükəsilə üzbəüz qoymuşdu.

Vətənin belə bir vəziyyətində bütün xalq və millətin taleyini, sabahını düşünən bütün vətənpərvər ziyalılar yalnız və yalnız yeganə böyük siyasətçiyə, böyük dövlət xadiminə, Azərbaycana həmişə başucalığı, firavanlıq, inkişaf bəxş etmiş dahi şəxsiyyətə, ürəyi və qəlbi həmişə Azərbaycana böyük məhəbbətlə döyünən ümummilli liderə - Heydər Əliyevə üz tutdu. Möhtərəm cənab Heydər Əliyev xalqın israrlı təklif və təkidlərinə, milyonların ona dikilmiş ümidlərinə, xalqın "Heydər" deyə, ümummilli mübarizəyə qalxmasına biganə qalmadı və Azərbaycanı düçar olduğu böhran və tənəzzüldən, dövlət müstəqilliyini məhvolma təhlükəsindən xilas etmək naminə 1993-cü il iyun ayının 15-də yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış zamanın sifarişi olduğu üçün və ümumxalq dəstəyi ilə baş verdiyi üçün həmin gün millətin tarixinə QURTULUŞ GÜNÜ kimi daxil oldu. Çox mühüm bir məsələ də budur ki, xalqın yaşamağa, sabaha, gələcəyə ölmüş inamı Heydər Əliyevin qayıdışı ilə özünə qayıtdı. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqın bütünlüklə yaşamağa olan itmiş ümidini bərpa etdi, xalqı kütləvi sosial inamsızlıq psixologiyasından xilas etdi, millətdə dövlətə, müstəqilliyin yaşamasına inam yaratdı. Həmin tarixdən etibarən Heydər Əliyev bir milli lider kimi və tarixin XX əsrdə Azərbaycan milləti üçün yetişdirdiyi dahi şəxsiyyət kimi həm XİLASKARLİQ missiyasını, həm də QURUCULUQ, TƏRƏQQİ missiyasını şərəflə yerinə yetirməyə başladı. Bu missiyalar, əslində, Heydər Əliyevin 1969-cu ildən başladığı xilaskarlıq və quruculuq missiyalarının davamı idi, lakin yeni tarixi dövrün, yeni tarixi şəraitin - müstəqil dövlətçiliyin, yeni milli mənafelərin tələblərinə uyğun olan və bu tələblərə cavab verən davamı idi.

Cənab Heydər Əliyev siyasi hakimiyyətə qayıdışından sonra ilk olaraq qeyri-stabil vəziyyətin qarşısını almağa başladı, ictimai-siyasi sabitlik yaradılması istiqamətində ciddi və konkret addımlar atdı. Bu da səbəbsiz deyildi. Məhz siyasi sabitlik Azərbaycanda müstəqilliyin möhkəmlənməsinin, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu proseslərinin, bütün sahələrdə inkişaf yönümlü islahatların həyata keçirilməsinin təmin edilməsi üçün əsas şərt ola bilərdi. Məhz

siyasi sabitlik Azərbaycanda milli həmrəyliyin, iqtisadi və sosial sahələrdə inkişafın, daxili və xarici siyasətin uğurla həyata keçirilməsinin etibarlı qarantı ola bilər. Buna görə də Heydər Əliyev siyasi müdriklik göstərərək, Azərbaycanın xilası naminə ictimai-siyasi sabitlik yaradılmasını ilkin vəzifə kimi qarşısına qoydu. İlk əvvəl Azərbaycanda vətəndaş qarşıdurması və xaotik vəziyyət yaradan Gəncə hadisələrinin nizamlanması, dinc yolla həlli istiqamətində məqsədyönlü işlərə başlayaraq, onu həll etdi. Ölkənin ərazi bütövlüyünü pozaraq "Talış-Muğan Respublikası" adlı bədnam, qeyri-qanuni inzibati vahid yaratmaq istəyən cinayətkarların, respublikanın idarə olunmasına süni manеələr yaradanların, təfriqə və təxribatçılıqla məşğul olanların və qızışdırıcı məqsəd güdənlərin, Qarabağ döyüşlərində iştirak bəhanəsilə qanunsuz silahlı dəstələr yaradanların, Qarabağda cinayətkar əməllərlə məşğul olan və yenidən vətəndaş qarşıdurmasını alovlandırmaq məqsədi güdənlərin, xaricdəki separatçı qüvvələrlə işbirliyi yaradanların ifşa edilib qanuni yolla öz cəzalarına çatması üçün qəti tədbirlər görülməsinə nail oldu. 1993-cü ilin oktyabr ayına təyin olunmuş prezident seçkisinin qeyri-stabil şəraitdə keçirilməsinin mümkün olmayacağını çox yaxşı başa düşən Heydər Əliyev öz dövləti səlahiyyətlərindən istifadə edərək, bütün mümkün qanuni yollarla 1993-cü ilin iyun-oktyabr aylarında nisbi stabillik əldə olunmasına nail oldu və beləliklə, seçkiyə hazırlıq işlərinin və seçki proseslərinin dinc şəraitdə, azad və müstəqil şəkildə aparılması üçün şəraitə uyğun bütün mümkün imkanları yaratdı. Bununla da 1993-cü ilin oktyabrında Azərbaycanda ilk demokratik, azad və ədalətli prezident seçkiləri keçirildi. Prezident seçkilərinin keçirilməsi üçün demokratik şərait yaradılması, digər tərəfdən isə bu seçkilərdə xalqın böyük mütəşəkkillik və siyasi fəallıqla iştirak etməsi və seçkilərin demokratik, ədalətli keçirilməsi öz növbəsində ölkədə siyasi stabilliyin bərqərar olmasına və dayanaqlı xarakter almasına olduqca müsbət təsir göstərdi.

1993-cü ilin sonu - 1994-cü əvvəlində Milli Ordumuzun uğurlu əməliyyatları təcavüzkar Ermənistan tərəfinin növbəti işğalçılıq planlarını alt-üst etdi. Ermənistan atəşin dayandırılması barədə danışıqlara başlamağa məcbur oldu və 1994-cü il mayın 12-də atəşkəs haqqında hər iki ölkə arasında razılaşma imzalandı. Atəşkəsə nail olunması o dövrdə çox mühüm və vacib addım idi. Bu məsələ Prezident Heydər Əliyevin siyasi peşəkarlığı sayəsində baş tutmuşdu. Belə ki, işğalçı Ermənistan Azərbaycanın ərazisində müharibəni davam etdirməkdə çox maraqlı idi. Bu məqsədlə Qarabağdakı müharibənin ərazi dairəsini genişləndirmək, Naxçıvanda, Qazax-Gəncə istiqamətində yeni cəbhə xətti açmaq üçün yeni planlar hazırlamışdı. Çünki Azərbaycanın başını müharibəyə qatmaqla, bir tərəfdən, onun ərazilərini işğal etmək, bir tərəfdən xalqa qarşı terror və soyqırım siyasətini genişləndirmək, ölkəmizdə mənəvi-psixoloji durumu gərginləşdirmək istəyir, o biri tərəfdən müharibə vasitəsilə Azərbaycanda sabitliyi pozaraq, vətəndaş və milli qarşıdurma toxumu səpmək məqsədi güdür, digər tərəfdən isə, müharibə sayəsində Azərbaycan dövlətinin möhkəmlənməsinin qarşısını almağa çalışırdı. Lakin böyük siyasi və dövlətçilik təcrübəsinə malik olan Prezident



Heydər Əliyev Ermənistanın müharibəyə niyə maraqlı olduğunu və hansı məqsədlər güddüyünü bütün dəqiqliyi ilə bildiyindən, onu hərbi güc yolu məcbur edib atəşkəs razılığına gətirdi. Atəşkəsin əldə olunması ilə müharibənin Azərbaycana gətirə biləcəyi təxribatların, faciələrin, məhrumiyyətlərin, itkilərin, çətinliklərin, qarşıdurmaların, sosial-psixoloji gərginliyin qarşısını aldı. Müharibənin bəxş etdiyi mövcud gərginlik, qeyri-sabitlik tədricən aradan qalxdı və baş verə biləcək bütün faciələrin, itkilərin qarşısı alındı.

Sabitliyin qorunması və möhkəmləndirilməsi məqsədilə əhalidən qanunsuz silahların müsadirə olunması istiqamətində hüquq-mühafizə orqanları tərəfindən addımlar ciddi atıldı. Əvvəlki iqtidarlardan miras qalmış mütəşəkkil cinayətkarlığa qarşı qanuni mübarizənin daha da gücləndirilməsi məqsədilə Prezident tərəfindən xüsusi olaraq "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" 1994-cü il 9 avqust tarixli fərman imzalandı. Fərman qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində yeni mərhələnin başlanğıcını qoydu, başlıcası, cinayətkarlığa qarşı mübarizəni daha da gücləndirdi. Bu istiqamətdə əldə olunan nəticələr öz növbəsində ictimai-siyasi sabitliyin möhkəmlənməsinə güclü təsir göstərdi.

1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınması, eləcə də Prezidentə sui-qəsd planlarının zərərsizləşdirilməsi ölkədə sabitliyin möhkəmlənməsi yolunda daha bir güclü və real təsiredici amil oldu. Qanunsuz hakimiyyət çevrilişi və hakimiyyətin zor ilə, silahla alınması üçün edilən cəhdlərin - 1994, oktyabr və 1995, mart hadisələrinin Azərbaycan xalqının bilavasitə iştirakı ilə - öz seçdiyi Prezidenti dəstəkləməsi və legitim hakimiyyəti qoruması ilə qarşısının alınması cəmiyyətdə, eləcə də beynəlxalq ictimaiyyətdə bir daha qəti əminlik yaratdı ki, Azərbaycanda siyasi hakimiyyətə hansı isə qanunsuz yolla, zor tətbiq etməklə gəlmək qeyri-mümkündür və Azərbaycanda siyasi hakimiyyətə gəlməyin yalnız bir yolu var: demokratik seçkilər.

Azərbaycanda ictimai-siyasi həyatın stabilləşməsi öz növbəsində, dövlət müstəqilliyini möhkəmləndirdi. Ölkədə geniş miqyaslı, nəhəng, həm də çətin və mürəkkəb demokratik, hüquqi dövlət quruculuğunun həyata keçirilməsinə real təminat verdi. Azərbaycanda siyasi sabitliyin yaradılması, möhkəmlənməsi və xalqın iştirakı ilə dönməz xarakter alması, öz növbəsində Azərbaycanı beynəlxalq aləmdə demokratik, hüquqi dövlət quruculuğu yoluna, milli tərəqqi, azad cəmiyyət quruculuğu yoluna qədəm qoymuş ölkə kimi tanıtdı.

Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla respublikanı siyasi, iqtisadi, sosial və mənəvi böhranlardan xilas etmək və bütün sahələrdə köklü islahatlar aparmaq üçün real imkan əldə etdi. Məhz Heydər Əliyevin nail ola bildiyi sabitlik nəticəsində ötən on il ərzində siyasi, hüquqi sahələrdə, idarəetmə sistemində, dövlət idarəçiliyində, hakimiyyət bölgüsündə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və inkişafı sahəsində, vətəndaş cəmiyyətinin və bazar münasibətlərinin formalaşması istiqamətində yenilikçi islahatlar proqram-

ları yaradıldı, çox mühüm islahatlar və ardıcıllıqla həyata keçirildi. Beləliklə, ən böyük nailiyyət ondan ibarət olmuşdur ki, həmin vaxtdan ölkədə əmin-amanlığın, qanunçuluğun bərpa olunması istiqamətində uğurlu addımlar atılmış, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyularaq, Azərbaycanda daxili ictmai-siyasi sabitlik yaradılmışdır. Ötən on ilin dövlətçilik təcrübəsi, əldə olunmuş böyük tarixi nailiyyətlər birmənalı şəkildə təsdiq edir ki, Azərbaycan Respublikasında siyasi sabitliyin yaradılması və qorunub-saxlanmasında güclü Prezident amili müstəsna rol oynamışdır. Bu illərin ən böyük nəticələrindən biri ondan ibarətdir ki, bu mərhələdə yaradılmış sabit siyasi durum şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilmiş, ölkədə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü daxili və xarici siyasətin uğurla həyata keçirilməsinə imkanlar yaranmışdır.

* * *

1993-cü ildən etibarən götürülən əsas siyasi xətt - demokratik, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi respublikada demokratiyanın, hakimiyyət bölgüsünün fundamental prinsiplərinin qərar tutması üçün əsaslı zəmin yaratdı. Ölkədə sabitliyin bərqərar olduğu şəraitdə dövlət müstəqilliyini özündə əks etdirən və demokratik dövlətin qurulmasına, inkişaf etməsinə, eləcə də daxili və xarici siyasətin həyata keçirilməsinə hüquqi imkan verən yeni Konstitusiyaya ehtiyac duyulurdu. Buna görə də 1995-ci ilin əvvəlində Prezident Heydər Əliyevin sədrliyi ilə Dövlət Konstitusiya Komissiyası yaradıldı. Həmin Komissiya tərəfindən mütüxəssis və ekspertlərin iştirakı ilə hazırlanmış Konstitusiya layihəsi geniş ümumxalq müzakirəsinə verildi və beləliklə, 1995-ci il noyabrın 12-də referendum yolu ilə bəşəri demokratik dəyərlərini özündə əks etdirən Əsas Qanun qəbul edildi. Konstitusiyanın qəbulu Azərbaycanda hüquqi dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu, hakimiyyətin demokratik meyarlar əsasında bölgüsü, qanunun aliliyinin rəhbər tutulması, vətəndaş hüquqlarının qorunması, söz, fikir və mətbuat azadlığının, siyasi plüralizm və çoxpartiyalılığın, demokratik seçkilər və bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi üçün əsaslı zəmin oldu. Konstitusiyaya uyğun olaraq dövlət hakimiyyətinin demokratik modeli - hakimiyyətin qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməsini nəzərdə tutan model yaradıldı, hakimiyyətin hər bir qoluna müvafiq olaraq, onların təşkilinin və fəaliyyətinin əsas prinsipləri formalaşdırıldı.

Dövlət quruculuğu və demokratiyanın inkişafı istiqamətində əldə edilən ən böyük və ən əsas siyasi nailiyyətlərdən biri də hüquq islahatları və bu islahatların uğurla həyata keçirilməsidir. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, ölkənin qanunlarla işləməsini təmin etmək, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, respublikanı hüquqi dövlət kimi inkişaf etdirmək üçün hakimiyyətə ikinci qayıdışından sonra bütün sahələrdə olduğu kimi, hüquq və məhkəmə sisteminin formalaşması sahəsində də köklü islahatlar həyata keçirməyə başladı. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 21 fevral tarixli sərəncamını xüsusilə qeyd etmək lazımdır. Bu sərəncama uyğun olaraq, Respublikada Prezidenti yanında Hüquq İslahatları Komissiyası yaradıldı. Hüquq islahatları sahəsində mühüm proqram sənədlərindən biri də Prezident Heydər Əliyevin 1996-cı il iyun ayının 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Həmin sərəncama əsasən, beynəlxalq normalara uyğun olaraq, "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Prokurorluq haqqında" və digər qanunlar hazırlanıb Milli Məclisdə qəbul edilmişdir.





Aparılan islahatların prioritet istiqamətlərindən biri olan məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində əsas məqsəd məhkəmələrin müstəqilliyinin, ədalət mühakiməsinə hər kəsin maneəsiz müraciət etmə imkanının, həllinə ehtiyac olan mübahisələrə qanuna müvafiq baxılmasının təmin edilməsidir. Bu baxımdan, 1995-ci ildə qəbul olunmuş Konstitusiyada hakimiyyətin bölgüsü prinsipinə uyğun olaraq məhkəmə hakimiyyətinin hüquqi əsaslarının konstitusion yolla təmin edilməsi hüquqi demokratik dövlət quruculuğunda müstəsna əhəmiyyətə malik olmuşdur. Məhkəmə-hüquq islahatlarının əsası Konstitusiyada qoyulmaqla, sonrakı illərdə uğurla davam etdirilmişdir. Belə ki, 27 noyabr 1997-ci ildən "Konstitusiya Məhkəməsi haqqında" Qanun qüvvəyə minmiş, 1998-ci ilin iyul ayından isə respublikada Konstitusiya Məhkəməsi fəaliyyətə başlamışdır. Konstitusiya Məhkəməsinin əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən ibarətdir. Bu Məhkəmə öz fəaliyyətində insan hüquq və azadlıqlarını müdafiə edir. Qanuna əsasən, Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını şərh etmək səlahiyyətinə malikdir.

Məhkəmə və hüquq islahatlarının tərkib hissəsi olan prokurorluqdakı islahatlar da qanunçuluğun möhkəmlənməsinə səbəb oldu. Möhtərəm cənab Heydər Əliyevin 1993-cü il 15 iyunda hakimiyyətə yenidən qayıdışı sayəsində həyata keçirilən məhkəmə-hüquq islahatlarının gedişində ölkəmizin prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən, onun cəmiyyətdə rolunu, yerini və statusunu müəyyənləşdirən hüquqi baza yaradılmış, Respublika Konstitusiyasında prokurorluğun təşkili və fəaliyyətini, hüquqi statusunu müəyyənləşdirən normalar nəzərdə tutulmuşdur. Aparılan islahatlar nəticəsində prokurorluq sistemi totalitar rejimə xas olan funksiyalardan xilas olmuş, onun fəaliyyətinin forma və metodları demokratik prinsiplərə və dəyərlərə uyğunlaşdırılmışdır. Hüquq islahatları sahəsində qəbul edilən sənədlərdən biri də "Vəkillər haqqında və vəkillik fəaliyyəti haqqında" qanundur. Bundan başqa "Notariat haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında", "Narkotik maddələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə

mübarizə haqqında", "Terrorizmə qarşı mübarizə haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Bələdiyyələrə seçkilərin qaydaları haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunlar hüquqi dövlətin və azad cəmiyyətin qurulmasında və inkişafında böyük əhəmiyyətə malik olmuşlar. Bu mühüm qanunların qəbulu məhkəmə, ədliyyə, prokurorluq və hüquq-mühafizə orqanlarında, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində aparılan islahatlar olmaqla, eyni zamanda bu sahələrdə işin yenidən qurulmasına və təkmilləşdirilməsinə xidmət etməklə yanaşı, həm də ölkədə siyasi sabitliyin, dövlət müstəqilliyinin möhkəmlənməsinin ən mühüm amili olmuşdur.

Möhtərəm Prezidentimiz Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis ölkəmizin Avropa xalqları ölkəsi ilə inteqrasiyasını gücləndirən digər normativ aktlar da qəbul etmişdir. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasının, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının Milli Məclisdə ratifikasiya olunması buna misal ola bilər.

Ölkədə hüquqi demokratik dövlət quruculuğu istiqamətində həyata keçirilən köklü hüquq islahatlarının uğurlu nəticəsi kimi meydana gələn yerli öüzünüidarəetmə - bələdiyyələr haqqında qanunvericilik bazası, öz növbəsində respublikamızda yerli özünüidarəetmə institutunun formalaşmasına, bələdiyyələrin yaranmasına və fəaliyyətinə zəmin yaratdı.

Son illərin məhsulu olan "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunları da ölkədə hüquq sisteminin, qanunçuluğun möhkəmlənməsi və inkişafı istiqamətində ən uğurlu addım hesab olunurlar.

Zamanla, cəmiyyətin, həyatın inkişafı ilə ayaqlaşmaq üçün qanunlar da dövrdən-dövrə inkişafın tələblərinə uyğun olaraq, dəyişməli və təkmilləşdirilməlidir. Qəbul olunmuş bir çox hüquqi sənədlərə, qanunvericilik aktlarına sonradan əlavə və dəyişikliklərin edilməsi buna parlaq nümunə ola bilər. Konkret fakt kimi Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqustun 24-də keçirilmiş referendumu misal göstərmək olar. Məlumdur ki, Heydər Əliyev qanunvericiliyimizin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədi ilə 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyaya dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının referendum aktı layihəsini ümumxalq müzakirəsinə çıxarmışdı. Azərbaycan vətəndaşlarının mütəşəkkil və fəal şəkildə 2002-ci il 24 avqust tarixli referenduma qoşularaq, Konstitusiyaya təklif olunmuş dəyişikliklərə səs verməlağ, ölkədə aparılan hüquqi islahatlarda, xüsusilə demokratik dövlət quruculuğunda vətəndaşların yaxından iştirakının və Konstitusiyaya dəyişikliklərin ümumxalq tərəfindən dəstəklənməsinin əyani təzahürü oldu.



Azərbaycan cəmiyyətində siyasi mədəniyyətin inkişafı, siyasi plüralizm və vətəndaş azadlığının təmin olunması öz real təsdiqini xalqın seçki proseslərində yaxından iştirak etməsində, eləcə də respublikada qazanılmış demokratik seçki təcrübəsində tapır. Müstəqil Azərbaycan Respublikasında ilk dəfə olaraq demokratik seçkilər yolu ilə və xalqın dəstəyi, iradəsi ilə hakimiyyətə Heydər Əliyev gəlmişdir. 1993-cü ilin oktyabr ayındakı prezident seçkisi vətəndaşların böyük ruh yüksəkliyi, siyasi fəallığı şəraitində keçirildi. O dövrdə Ali Sovetin sədri və prezident səlahiyyətlərinin icraçısı vəzifələrində işləyən Heydər Əliyev prezident seçkisinin demokratikcəsinə, qanunlara uyğun keçirilməsi və bütün namizədlərə eyni dərəcədə imkan yaradılması üçün lazım olan şəraiti yaratmışdı. Seçkilərdə vətəndaşların rəyinin azad ifadə edilməsi üçün, seçmək və seçilmək hüquqlarının təmin olunması üçün lazımi imkan və şərait yaradılmışdı. Məhz 1993-cü ilin prezident seçkisində Heydər Əliyev müstəqil dövlətdə demokratik, azad və şəffaf seçki yolu ilə hakimiyyətə gəlməyin əsl mexanizmini, beynəlxalq təcrübəyə uyğun yolunu göstərdi. Məhz Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə keçirilən prezident seçkilərinin demokratikliyi Azərbaycanda siyasi hakimiyyətə yalnız bir yolla - qanuni seçki yolu ilə gəlməyin mümkünlüyünü əsaslandırdı, zəruri və inandırıcı etdi.

Azərbaycan Respublikasında iki dəfə prezident (1993, 1998), iki dəfə parlament (1995, 2000), bir dəfə bələdiyyə (1999) seçkilərinin keçirilməsini və bu seçkilərin nəticələrinin şəffaflığı, ədalətliyi, demokratikliyi ölkə ictimaiyyəti tərəfindən də, beynəlxalq müşahidəçi qismində çıxış edən təşkilatlar, ekspertlər tərəfindən də tanınmış, dəstəklənmişdir. Bir mühüm məsələni vurğulamaq lazımdır ki, respublikada bütün seçkilər məhz çoxpartiyalı şəraitdə aparılmışdır. Parlament, prezident, bələdiyyə seçkilərində bütün partiyaların azad, bərabərhüquqlu, ədalətli iştirakı təmin olunmuşdur.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə Azərbaycan milli mətbuatı özünün müstəqillik tarixinə qədəm qoydu. Başlıcası isə, həmin tarixdən etibarən Azərbaycanda kütləvi informasiya vasitələrinin intibah, dirçəliş, tərəqqi, demokratiya dövrü başladı. Heydər Əliyevin dövlətçilik siyasəti və rəhbərliyi sayəsində Azərbaycan xalqının əldə etdiyi ictimai-siyasi sabitlik bütün sahələrin olduğu kimi, kütləvi informasiya vasitələrinin də təkamül yolu ilə irəliləməsi, demokratikləşməsi, inkişaf etməsi üçün ilkin və zəruri şərtə çevrildi. Azərbaycanda iqtisadi, sosial sahələrdə aparılan geniş demokratik islahatlar nəticəsində kütləvi informasiya vasitələrinin maddi-texniki bazası da xeyli dərəcədə müasirləşdi, gücləndi.

* * *

1993-cü ildən etibarən ölkədə ictimai-siyasi sabitlik əldə edilməsi yönümündə qazanılan nəticələr, öz növbəsində iqtisadiyyatın sabitlik, dirçəliş, tərəqqi yo-

luna qədəm qoymasına da təminat verdi. Bu yolda nailiyyət əldə olunması, iqtisadiyyatda köklü islahatların aparılmasına real imkan yaratdı. Prezident Heydər Əliyev dövlətin iqtisadi sahədə quruculuq işlərinin əsas istiqamətləri barədə belə demişdir: "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur." Lakin qeyd etməliyik ki, bu yol olduqca çətin və mürəkkəb vəzifələrin, problemlərin həllini nəzərdə tutan bir yol olmuşdur. Bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyev iqtisadi islahatların istiqamətlərini müəyyənləşdirərək, onların həyata keçirilməsinə başladı. 1993-1995-ci illərdə bazar iqtisadiyyatı münasibətlərinin mahiyyəti və xüsusiyyətləri əsasında yeni iqtisadi sistemə keçidin ən zəruri hüquqi-normativ bazasının yaradılması sahəsində böyük işlər görüldü.

1996-cı ildən 2000-ci ilə qədər davam edən mərhələnin əsas yekunu iqtisadiyyatın intensiv inkişaf yoluna çıxarılmasıdır. Böhran dayandırıldı və 1996-cı ildə ilk dəfə olaraq, istehsalın bir çox sahələrində artımın əsası qoyuldu. 1994-2000-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafına 6 milyard dollar həcmində xarici investisiya cəlb edilmişdir. Xarici investisiya qoyuluşu 1995-ci ildə 375,1 milyon, 1996-cı ildə 620,5 milyon, 1997-ci ildə 1.307,3 milyon, 1998-ci ildə 1.472 milyon, 1999-cu ildə 1.091,1 milyon, 2000-ci ildə 972 milyon, 2001-ci ildə 1.091,8 milyon ABŞ dollar, təşkil etmişdir. ümumiyyətlə, 1995-ci illə müqayisədə əsas kapitala yönəldilmiş xarici investisiya 6,4 dəfə artmışdır. Bu investisiyaların 56 faizi neft sektoruna, qalan hissəsi isə iqtisadiyyatın başqa sahələrinin inkişafına yönəldilmişdir. 1997-ci ildə Azərbaycan hökumətinin "Dövlət sektoruna investisiya qoyuluşunun orta müddətli Proqramı (1998-2000)" xarici investisiyaların qorunmasına dövlət təminatının verilməsi kimi qiymətləndirilmiş, "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında" qanunlar ölkəyə xarici investisiyanın axınını gücləndirmişdir.

İqtisadi sabitliyin göstəricisi olan inflasiyanın səviyyəsinə diqqət edək. 1994-cü ildə inflasiyanın səviyyəsi 1600 faizə çatmışdı, yəni il ərzində istehlak qiymətləri 16 dəfə artmışdı. Görülən tədbirlər nəticəsində 1995-ci ildə inflasiyanı kəskin surətdə azaltmaq mümkün olmuş və o, 85 faizə qədər enmişdir. 1996-cı ildə inflasiyasının səviyyəsi 6,7 faizə, 2000-ci ildə isə 1,8 faizə enmişdir.

Əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun artım dinamikasını nəzərdən keçirək. Azərbaycanda ÜDM istehsalı 1993-cü ildə 157 milyard manat, 1994-cü ildə 1.873 milyard manat, 1995-ci ildə 10.669 milyard manat, 1996-cı ildə 13.663 milyard manat, 1997-ci ildə 15.791 milyard manat, 1998-ci ildə 17.203 milyard manat, 1999-cu ildə 16.489 milyard manat, 2000-ci ildə 23.509,5 milyard manat, 2001-ci ildə 26.619,8 milyard manat olmuşdur. 2002-ci ildə isə, adambaşına düşən ÜDM istehsalı əvvəlki ilə nisbətən 9,6 faiz çox olmuşdur, yəni adambaşına 3,1 milyon manatlıq (647,9 dollarlıq) ÜDM istehsal olunmuşdur. 2002-ci il dekabrın 1-nə olan məlumata görə ÜDM-in çəkisi 34,3 faizə qalxıb ki, bu da 2001-ci ilin müvafiq dövründəkindən 3,3 faiz çoxdur. İstehsalın həcmi yanacaq sənayesi müəssisələrində 26 faiz, o cümlədən neft və qaz hasilatında 2,3 faiz, metallurgiyada 2 dəfə, kimya və neft kimyası sənayesində 38, tikinti materialları sənayesində 50,6, yüngül sənayedə 6,2 faiz artmışdır. Sənaye məhsulunun 49,2 faizi qeyri-dövlət bölməsində istehsal olunub ki, bu da əvvəlki ilə nisbətən 10,6 faiz artıqdır. Beləliklə, makroiqtisadi göstəricilərin ilbəil artması respublikada iqtisadi inkişafın göstəricisi olmaqla, iqtisadi siyasətin uğurlu nəticələri kimi də qiymətləndirilə bilərlər.



1995-2000-ci illərdə dövlətin birinci özəlləşdirmə proqramı əsasən başa çatmışdır. Hazırda dövlət əmlakının özəlləşdirməsinin II Dövlət Proqramı həyata keçirilməyə başlayıb ki, bu da başlıca olaraq, iri sənaye obyektlərinin özəlləşdirilməsini nəzərdə tutur.

Hər şeydən əvvəl bu dövr ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft və qaz sənayesinin yenidən qurularaq yüksək sürətlə inkişaf etməsi ilə səciyyələnir. Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, Azərbaycan xalqının sosial-iqtisadi vəziyyətinin durmadan yüksəldilməsi, xalqın xoşbəxt və firavan gələcəyinin təmin edilməsi istiqamətində dövlət və xalq qarşısında ən böyük tarixi xidmətlərindən və böyük tarixi nailiyyətlərindən biri onun müəllifi olduğu və məhz onun rəhbərliyi ilə həyata keçirilən dövlət neft strategiyasıdır. Dövlətin neft siyasəti Azərbaycanın daxili və xarici siyasəti yönümündə və milli inkişaf məqsədilə həyata keçirilərək, respublikanın iqtisadi, sosial inkişaf strategiyasında, geniş miqyaslı beynəlxalq əlaqələrin qurulmasında, ölkənin beynəlxalq nüfuzunun güclənməsində, respublikada siyasi və iqtisadi sabitliyin möhkəmlənməsində, regionda geosiyasi vəziyyətin, siyasi, hərbi və iqtisadi münasibətlərin normallaşdırılmasında, sülh və əmin-amanlığın təmin olunmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında ən aparıcı yeri tutur. Onu da qeyd etmək vacibdir ki, Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətlərinin, o cümlədən, zəngin neft və qaz ehtiyatlarının xalqın milli sərvətinə çevrilməsi, xalqın öz təbii sərvətlərinin əsl sahibinə çevrilməsi, öz sahiblik huququnu əldə etməsi, nəhayət, bu zəngin təbii sərvətlərin, zəngin təbii resursların məhz milli maraqlar istiqamətində, milli inkişaf yönümündə istifadə olunması, yalnız, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı sayəsində, onun dövlət müstəqilliyini möhkəmləndirməsi sayəsində, demokratik, hüquqi dövlət quruculuğu sayəsində və ən başlıcası milli maraqlar müstəvisində apardığı daxili və xarici siyasət sayəsində mümkün olmuşdur.

Bu baxımdan Heydər Əliyevin milli istehsalın inkişafına, siyasi və iqtisadi sabitliyin bərqərar olunmasına və beynəlxalq əlaqələrin qurulmasına məhz neft strategiyasının həyata keçirilməsi ilə başlaması heç də təsadüfi deyildi. Tarixən Azərbaycan iqtisadiyyatının özəyini neft-qaz sənayesi təşkil etmişdir və ölkəmizin ən böyük nailiyyətlərindən biri də bu sahədə qüdrətli elmi-texniki və kadr potensialının, geniş infrastrukturun yaradılması olmuşdur. Məhz bu sahə iqtisadiyyatın aparıcı amilinə çevrilmiş və onun inkişafına daim xüsusi diqqət yetirilmişdir. Heydər Əliyevin neft doktrinası Azərbaycan milli iqtisadiyyatının, sosial

sahələrin inkişafında güclü stimul olmuş, daxili və xarici siyasətin uğurla həyata keçirilməsinə, ölkənin bir çox taleyüklü məsələlərinin həllinə real imkanlar yaratmışdır. Bu haqda Möhtərəm cənab Prezidentin bir fikrini xatırlamaq yerinə düşər: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdir."

Qeyd etmək vacibdir ki, yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsi işində Azərbaycan gənclərinin lideri, respublikanın siyasi, iqtisadi həyatında fəal iştirak edən, ölkədə və beynəlxalq aləmdə görkəmli ictimai-siyasi xadim kimi nüfuz qazanmış ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili cənab İlham Əliyevin də böyük əməyi və xidmətləri olmuşdur. 1994-cü ildə neft siyasətinin həyata keçirilməsi üçün xarici neft şirkətləri ilə aparılan danışıqlarda iştirak edən cənab İlham Əliyev qarşıdakı vəzifələr haqqında belə demişdir: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etmək deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri - həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir."

Nəhayət aparılan hazırlıq işləri, həyata keçirilən danışıqlar, əldə edilən razılaşmalar, görülən tədbirlər öz səmərəsini, müsbət nəticəsini verdi. 1994-cü il sentyabr ayının 20-də Bakıda "Gülüstan" sarayında ARDNŞ ilə xarici ölkələrin nəhəng neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının, bütövlükdə "Günəşli" yatağının isə suyun dərinliyinin 200 metrdən çox olan hissəsinin müştərək işlənilməsi haqqında müqavilə imzalandı. Bu müqavilə həm imzalanan müqavilələrin sayına, həm iqtisadi əhəmiyyətinə, həm də regionada siyasi və iqtisadi sabitliyindəki roluna görə bütün beynəlxalq aləmdə "Əsrin müqaviləsi" adlandırıldı. Müqavilə 30 illiyə nəzərdə tutulurdu. Müqavilədə 7 ölkənin - Azərbaycan, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı və Türkiyənin 11 nəhəng neft şirkəti - ARDNŞ, "BP", "AMOKO", "LUKoyl", "Penzoyl", "YUNOKAL", "Statoyl", "TPAO", "Mark-Dermott", "Ramko Enerci", "Delta-Nimir" şirkətləri iştirak edirdi. Hesablamalara görə, müqavilədə nəzərdə tutulan yataqlarda 511 milyon ton (4 milyard barel) neft vardır. Müqaviləyə əsasən, xarici şirkətlərlə imzalanmış neft kontraktında ümumi gəlirin 80 faizi Azərbaycan tərəfinə verilir, qalan 20 faizi isə digər şirkətlər arasında bölüşdürülmüşdür. Aparılan hesablamalara görə, bu yataqlardan 55 milyard kub. metr qaz da hasil olunmalıdır ki, bunun da hamısı Azərbaycana çatacaqdır. Həmin müqavilədə adları çəkilən bütün bu yataqların Azərbaycanın tam yurisdiksiyası altında qalacağı təsdiqlənirdi.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının müstəqilliyini, demokratik inkişaf yolu tutmuş hüquqi dövlət olduğunu və xalqın öz sərvətlərinin tam hüquqi sahibi olduğunu əsaslı şəkildə bütün



dünyaya bəyan etdi. Belə bir mühüm addım atmaqla, Azərbaycan dövləti özünün azad iqtisadi inkişaf yolu tutduğunu və azad bazar iqtisadiyyatına qoşulduğunu, həm də beynəlxalq iqtisadi əlaqələrə hüquqi təminat baxımından tam hazır olduğunu sübut etdi. "Əsrin müqaviləsi" Azərbaycana xarici investisiyalar axınına səbəb oldu, ən başlıcası, müqavilədə iştirak edən xarici dövlətlərlə Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni sahələrdə beynəlxalq əməkdaşlığına, respublikanın beynəlxalq miqyasda dəstəklənməsinə geniş imkanlar, perspektivlər qazandırdı.

Yeni neft strategiyasının ən mühüm tərkib hissələrindən biri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ideyasının meydana qoyulması və onun reallığa çevrilməsidir. Bu ideyanın müəllifi məhz cənab Heydər Əliyevdir. 2000-ci il noyabrın 19-da Türkiyənin İstanbul şəhərində ATƏT-in növbəti zirvə toplantısından sonra Türkiyə, Azərbaycan və Gürcüstan dövlət başçıları arasında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi imzalandı. ümumi uzunluğu 1760 km. olan kəmərin 468 kilometri Azərbaycan, 225 kilometri Gürcüstan, 1037 kilometri isə Türkiyə ərazisindən keçəcəkdir. Dünyanın ən böyük layihələrindən olan bu layihədə boru çəkilişi ilə yanaşı, Səngəçal terminalının genişləndirilməsi, Ceyhan limanında yeni nəhəng terminalın inşası, 11 nasos stansiyasının tikilməsi də nəzərdə tutulmuşdur. İldə 50-60 milyon ton neft ötürmək qabiliyyətində olan bu kəmərin yekun dəyəri 2,95 milyard ABŞ dollarıdır. Bakıdan Ceyhana nəql ediləcək neftin hər tonuna çəkilən xərc 18 dollar təşkil edəcəkdir.

18 sentyabr 2002-ci il tarixdə isə respublikanın siyasi-iqtisadi həyatında daha bir mühüm tarixi hadisə baş verdi: Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirildi. üç dövlət başçısının birgə iştirakı ilə keçirilən bu mərasim bütün inkişaf etmiş dövlətlər tərəfindən maraqla izlənildi və dünyanın aparıcı kütləvi informasiya vasitələri tərəfindən yayımlandı. Qeyd edək ki, 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndən sonra daha 20 neft müqaviləsi imzalayan Azərbaycana indiyə qədər 6 milyard dollar həcmində sərmayə qoyulmuşdur. Ən başlıcası, indiyə qədər dünyanın 15 ölkəsinin 33 ən iri şirkəti ilə Xəzərin Azərbaycan sektorunda neft və qazın birgə işlənilməsi barədə 21 saziş imzalanmışdır ki, bu 21 neft müqaviləsinin reallaşmasında Azərbaycana qoyulacaq sərmayənin ümumi həcmi 60 milyard dollara bərabərdir. İndiyə qədər qoyulmuş 6 milyard dollar sərmayənin 4 milyard dolları isə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının payına düşür.

Yaxın gələcəkdə Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin, dünya əhəmiyyətli "Şahdəniz" qaz yatağının istismara verilməsi və Bakı-Ərzurum qaz kəmərinin çəkilməsi Azərbaycanın iqtisadi qüdrətini daha da artıracaq, Azərbaycanın dünyaya iqtisadi inteqrasiyasını sürətləndirəcək, xalqımızın sosial rifahının daha yüksək səviyyələrə qalxmasına səbəb olacaqdır.

Azərbaycan dövlətinin neft strategiyasının məqsəd və nailiyyətləri "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" Azərbay-

can Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanında özünün olduqca mahiyyətli, yığcam və dəqiq qiymətini tapmışdır. Sitat: "Azərbaycan dövlətinin neft strategiyasının işlənib hazırlanması və ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin əldə etdiyi nailiyyətlərin ən əsasıdır. Bu sahədə bir çox faydalı sazişlər imzalanıb, işlər görülmüşdür. Müstəqil neft strategiyasının həyata keçirilməsi vasitəsilə Azərbaycan dünyanın bir çox ölkələrinin diqqətini, marağını özünə cəlb etmişdir. Azərbaycanın neft strategiyası ölkəyə həm iqtisadi inkişaf üçün əlverişli şərait yaradıb, həm də dünyanın bir çox dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa imkan veribdir. Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər, nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxlaq nüfuzunun artmasına və müstəqilliyinin möhkəmlənməsi işinə xidmət edir."

Beləliklə, müəllifi Heydər Əliyev olan Azərbaycan dövlətinin neft siyasəti Azərbaycanda bazar iqtisadiyyatının qurulması və inkişafında, ümumən milli iqtisadiyyatın inkişafında, beynəlxalq iqtisadi əlaqələrinin möhkəmlənməsində, respublikanın beynəlxalq nüfuz və dəstəyinin möhkəmlənməsi və inkişafında, həmçinin ölkəmizin dünyanın ən inkişaf etmiş ölkələri ilə, fövqəldövlətlərlə dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsində olduqca böyük tarixi rol oynamışdır. Neft strategiyasının uğurla həyata keçirilməsinin əsas mahiyyətlərindən biri də bu siyasətin məhz milli maraqlara istiqamətləndirilməsidir. Digər tərəfdən isə, Heydər Əliyevin neft siyasəti Azərbaycanın regionda geopolitik və iqtisadi mövqelərini möhkəmləndirmiş, dünyanın inkişaf magistralına çıxarmış, onu regionda sabitliyin ən etibarlı qarantına çevirmişdir. Bütün bunlara isə məhz Heydər Əliyevin uğurla apardığı konseptual daxili və xarici siyasət sayəsində, Heydər Əliyevin demokratik, sivil dövlət quruculuğu sayəsində nail olunmuşdur.

İqtisadiyyatın əsas sahələrindən olan kənd təsərrüfatı da 1993-cü ildən sonra dirçəliş və inkişaf yoluna qədəm qoymuşdur. Bu məqsədlə dövlət tərəfindən ciddi addımlar atılmış, inkişaf proqramları, mühüm tədbirlər, islahatlar həyata keçirilmiş, qanunlar işlənib-hazırlanmış, xüsusi qurum və strukturlar meydana gəlmişdir. İnkişafa istiqamətləndirilmiş, görülən konkret işlər nəticəsində ölkə iqtisadiyyatının əsas sahələrindən olan kənd təsərrüfatının uğurları ilbəil artmışdır. Ölkədə köklü aqrar islahatların aparılması, torpağın kəndliyə verilməsi, kənd təsərrüfatı məhsulu istehsalçılarına böyük güzəştlər edilməsi, respublika ərazisinin müxtəlif hissələrində nümunəvi fermer təsərrüfatlarının yaradılması və həyata keçirilən digər tədbirlər çox müsbət nəticələr vermişdir.

Möhtərəm Prezidentin təşəbbüsü ilə 1994-cü ilin mart ayında kənd təsərrüfatı problemlərinə həsr olunmuş xüsusi respublika müşavirəsi çağırılmış və Prezident bu müşavirədə demişdir: "Müstəqil inkişaf yoluna qədəm qoymuş respublikada artıq köhnə sosialist sistemindən imtina edilməli, yeni, mütərəqqi sistem yaradılmalı, iqtisadi siyasət aparılmalıdır, yəni bazar iqtisadiyyatına keçilməli, iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında islahatlar aparılmalıdır, kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar yeganə yolumuzdur."

Kənd təsərrüfatının əsas iqtisadi sahə kimi inkişafını nəzərdən keçirmək üçün bəzi statistik rəqəmlərə istinad edək. 2001-ci ildə 1999-cu illə müqayisədə taxıl istehsalı 83,5 faiz, kartof istehsalı 29,1 faiz, tərəvəz 17,4 faiz, meyvə istehsalı 4,3 faiz artmışdır. Həmin dövrdə yumurta, yun, süd və ət istehsalı 2,1-9,5 dəfə çoxalmışdır. 2001-ci ildə dənli və dənli-paxlalı bitkilərin hər hektarından orta hesabla 26,0 sentner məhsul yığılmışdır ki, bu da 1999-cu ilin göstəricisindən 5,3 sentner, 2000-ci ilin göstəricisindən 2,7 sentner çoxdur. 2002-ci il yanvarın 1-nə olan statistik məlumata görə respublikada 2075,8 min baş iribuynuzlu mal-qara və 6463,4 min baş qoyun-keçi olmuşdur ki, bu da 1995-ci illə müqayisədə müvafiq olaraq 394,1 min baş və 1819 min baş çoxdur. 2001-ci ildə 1995-ci ilə nisbətən ölkənin ümumi Daxili Məhsulu 55 faiz artmışdır. Sənayedə bu göstərici 11 faiz təşkil edirsə, kənd təsərrüfatında 37 faiz təşkil edir. 2001-ci ildə taxıl istehsalı 2 milyon tonu keçmişdir ki, bu da respublikanın indiyə qədərki taxıl istehsalında rekord göstərici sayılır. Təkcə 2002-ci ilin səkkiz ayı ərzində kənd təsərrüfatının ümumi məhsulu 5,1 faiz artmışdır.

Möhtərəm cənab Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə gəlişindən sonra respublika bütün sahələrdə olduğu kimi sosial sahədə də gərginlik və tənəzzüldən xilas oldu. 1991-1993-cü illərdə iqtisadiyyatın bütün sahələrində müşahidə olunun geriləmə, bütün makroiqtisadi göstəricilərin aşağı düşməsi öz növbəsində əhalinin sosial vəziyyətinə də mənfi təsir etmiş, sosial həyat olduqca bərbad vəziyyətə düşmüş, əhalinin güzəranı pisləşmiş, sosial müdafiə sahəsində heç bir irəliləmə olmamış, əmək haqları artmamış, əlillər və pensiyaçılar dövlət qayğısından kənarda qalmış, ölkəni işsizlik, yoxsulluq, aclıq bürümüşdü. Heydər Əliyevin 1993-1995-ci illərdə xalqımıza bəxş etdiyi ən böyük tarixi nailiyyət - siyasi sabitlik nəticəsində ölkə iqtisadiyyatının dirçəliş yoluna qədəm qoyması, iqtisadi sabitliyin yaranması, iqtisadiyyatın sosial yönümlüyünün artması, sosial sahədə islahat və proqramların həyata keçirilməsi baş verdi ki, bu da nəticə etibarilə respublikada sosial böhranın, işsizliyin tədricən aradan qalxmasına, sosial tərəqqiyə, əhalinin sosial müdafiəsinin güclənməsinə, bir sözlə, sosial-iqtisadi inkişafa səbəb oldu. Ötən on il ərzində dövlət tərəfindən sosial inkişaf proqramları, layihələri işlənib hazırlanmış, müvafiq qərar, sərəncam və fərmanlar verilmiş, qanunlar qəbul olunmuş, sosial inkişafın konseptual əsasları elmi şəkildə işlənilmiş və həyata keçirilmişdir. Ölkənin sosial-iqtisadi makrostabilliyi təmin edilmiş, ölkədə keçid dövrü üçün səciyyəvi olan sosial-iqtisadi gərginliklər aradan qaldırılmışdır. Sosialyönümlü siyasətin bazar iqtisadiyyatı şəraitində əsas istiqamətləri, onun reallaşdırılmasının yolları müəyyənləşdirilmiş, sosial müdafiə sisteminin yenidən və müasir tələblərə, daxili imkan və tələbatlara uyğun qurulması başa çatdırılmış, sosial sahəyə yardım göstərə biləcək qurum və fondlar yaradılmış, sosial prioritetlər, ehtiyatlar müəyyən-

ləşmiş, dövlət və ictimai yardımların həcmi və istiqamətləri artmış, sosial problemlərin həllində müsbət göstəricilərə nail olunmuşdur. Əhalinin həyat səviyyəsinin yüksəlməsi və yoxsulluq həddinin aşağı düşməsi istiqamətində proqram və layihələr, qanunlar işlənilmiş və uğurla həyata keçirilmiş, sosial sahələrin və strukturların yenidən qurulmasına, təkmilləşdirilməsinə və sosial inkişaf layihələrinin həyata keçirilməsinə investiyalar cəlb olunmuş, əhalinin ümumi sayında orta təminatlı ailələrin xüsusi çəkisinin artması məsələsinə sosial yönümlü siyasətdə xüsusi diqqət verilmişdir. Əldə olunan nailiyyətlərdən belə nəticə alınır ki, xalqın sosial həyat səviyyəsinin yüksəlməsi, sosial rifah halının inkişaf etməsi dövlətin öz qarşısına qoyduğu ən önəmli məqsəd olmuş və ölkənin sosial inkişafının təyinedici amilinə çevrilmişdir.

Konret faktlara müraciət edək. Son illərdə dövlət büdcəsi gəlirlərinin artması sosial problemlərin həlli üçün daha çox vəsait ayrılmasına imkan vermişdir. Məsələn, 1995-ci ildə dövlət büdcəsindən sosial yönümlü xərclərə 930 milyard manat və ya büdcə xərclərinin 43% məbləğində vəsait istifadə edilmişdirsə, 2000-ci ildə bu məqsədlər üçün artıq 2,2 dəfə çox, yəni 2 trilyon manat (büdcə xərclərinin 53 faizi) xərclənmişdir. 2001-ci ilin dövlət büdcəsində sosial yönümlü xərclərin xüsusi çəkisi 61%-ə çatdırılmaqla, əvvəlki ilə nisbətən 40 faiz artırılmışdır.

Son on ildə pensiyaçıların həyat şəraitini, sosial vəziyyətini yaxşılaşdırmaq istiqamətində bir sıra tədbirlər görülmüş, əhalinin pensiya təminatı sahəsində ciddi addımlar atılmışdır.

Məşğulluq, əhalinin işlə təminatı sosial siyasətin əsas problemləri kimi dövlətin daim diqqət mərkəzində olmuşdur. Bazar iqtisadiyyatına keçidin yaratdığı bəzi problemlər sırasında, əhalinin işsizliyi, işçi qüvvəsinin daxili və xarici miqrasiyası kimi problemləri də doğurmuşdur ki, onların da həlli üçün lazımi tədbirlər görülmüşdür. Bu istiqamətdə atılan ciddi və uğurlu addımlardan biri də şəhər və rayonlarda məşğulluq mərkəzlərinin yaradılması olmuşdur. 1997-2000-ci illər ərzində 200 minə yaxın vətəndaş münasib işlə təmin edilmiş, 17 min nəfər əmək bazarının tələbləri əsasında müasir peşə və ixtisaslar üzrə hazırlıq kurslarına, 24 minə yaxın işsiz vətəndaş haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, 84536 nəfərə işsizlik müavinəti ödənilmişdir. Ölkədə işsizlik probleminin daha sürətli və məqsədyönlü həllinə nail olmaq, əhalinin məşğulluq problemini həll etmək və işsizlik müavinətlərinin minimum həddinin artırılmasına nail olmaq üçün 2001-ci il 2 iyun tarixdə Milli Məclis tərəfindən "Məşğulluq haqqında" yeni qanun qəbul edilmişdir.

Əhalinin pul gəlirlərinin artması da dövlətin sosial siyasətinin başlıca məqsədlərindən biridir. Orta aylıq əmək haqqının 1995-2000-ci illərdə 4 dəfədən də çox artaraq 260 min manata çatması vətəndaşların həyat səviyyəsinin yaxşılaşması istiqamətində ardıcıl dövlət siyasətinin uğurlu nəticələrindən xəbər verir. Əmək haqqı sahəsində aparılan islahatlar və həyata keçirilən tədbirlər nəticəsində 1994-2001-ci illərdə səhiyyə, mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri, idman və sosial təminat sahlərində maaşlar orta hesabla 6,2 dəfə, təhsil işçilərinin əmək haqları 8,1 dəfə, elmi işçilərin aylıq maaşları 6,6 dəfə artmışdır. Həyata keçirilən əmək haqqı islahatları və sosial müdafiə tədbirləri aztəminatlı ailələrin rifahının yaxşılaşdırılmasında xüsusilə böyük rol oynamışdır. Məsələn, gəlirlərin vergi tutulmayan məbləğinin 6 dəfədən çox artırılaraq. 100 min manata çatdırılması bu kateqoriyadan olan adamların gəlirlərini əhəmiyyətli dərəcədə artırmışdır.



İnflasiyanın qarşısının alınması da əhalinin sosisal rifahının yüksəlməsinə müsbət təsir göstərmişdir. 1990-cı illərin əvvəllərində inflasiyanın artımı əhalinin pul gəlirlərinin artım sürətini 3 dəfə üstələdiyi halda, son beş ildə aparılan iqtisadi-sosial siyasət nəticəsində əks proses baş vermişdir, yəni əhalinin pul gəlirlərinin artımı inflasiyanın səviyyəsini 2,3 dəfədən çox qabaqlamışdır ki, bu da eyni zamanda əhalinin alıcılıq qabiliyyətinin bir o qədər yüksəlməsinə səbəb olmuşdur. Pul gəlirinin dinamikasına nəzər saldıqda məlum olur ki, 1995-2000-ci illərdə ölkə əhalisinin pul gəlirləri 2,6 dəfə artaraq, 7,6 trilyon manata çatmışdır. 2000-ci ildə adambaşına düşən pul gəlirlərinin illik məbləği 2215 min manat təşkil etmişdir.

1998-ci il sentyabrın 17-də ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək və onların sosial müdafiəsini gücləndirmək məqsədilə Dövlət Proqramı qəbul edilmişdir. Həmin Dövlət Proqramından irəli gələn vəzifələri həyata keçirmək, o cümlədən, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədilə 1999-cu ilin dekabrında Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yaradılmışdır.

* * *

Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab Heydər Əliyev 1993-cü ildən etibarən Azərbaycanın xarici siyasət kursunda da köklü yeniləşmə aparmış, dövlətin xarici siyasəti sahəsində əvvəlki dövrlərdə yol verilmiş səhvləri aradan qaldırmışdır. Məhz Heydər Əliyevin siyasi və dövlətçilik təcrübəsi, idarəetmə səriştəsi və beynəlxalq nüfuzu sayəsində, onun rəhbərliyi ilə yeridilən balanslaşdırılmış, tarazlı siyasət sayəsində Azərbaycanın beynəlxalq maraqları həyata keçirilmiş, xarici siyasət kursu uğurla davam etdirilmiş, Azərbaycanın beynəlxalq nüfuzu yüksəlmişdir. Heydər Əliyevin apardığı xarici siyasət kursu Azərbaycanın milli maraqlarına, onun daxili problemlərinin həllinə, regionda sülhün təmin olunmasına və ölkənin beynəlxalq əlaqə və münasibətlərinin genişlənməsinə istiqamətlənmişdir. Möhtərəm Prezident dövlətimizin xarici siyasətinin əsas məqsədlərini ümumiləşdirərək, belə ifadə etmişdir: "Xarici siyasətimiz sülhsevər siyasətdir. Azərbaycanın daha geniş tanınmasına xidmət edir. Xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas

vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir."

Azərbaycan dövlətinin xarici siyasəti sayəsində ölkəmiz ABŞ ilə, Avropa dövlətləri ilə, Xəzəryanı ölkələrlə, Yaxın, Orta və Uzaq Şərq ölkələri ilə, ərəb ölkələri ilə mehriban dostluq və əməkdaşlıq münasibətləri qurmuş, siyasi, hüquqi, iqtisadi, sosial və mədəni sahələrdə yüzlərlə əməkdaşlıq sazişləri bağlamış, əlaqələr yaratmışdı. Bu gün dünyanın bütün inkişaf etmiş ölkələri Azərbaycanı demokratik inkişaf yolu tutmuş, müstəqil, suveren dövlət kimi tanıyır və Azərbaycanla beynəlxalq qurumlar daxilində tərəfdaşlıq edirlər. Məhz Heydər Əliyevin xarici siyasəti sayəsində Azərbaycan dünya birliyinin sayılan, mötəbər üzvlərindən birinə çevrilmiş, ölkəmizin beynəlxalq proseslərdə iştirak çəkisi və səviyyəsi yüksək dərəcədə artmışdır. Hal-hazırda Azərbaycan Respublikası BMT, ATƏT, Avropa Şurası, MDB, Avroatlantika Tərəfdaşlıq Şurası, Qərbi Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Şimali Atlantika Assambleyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUÖAM və s. bu kimi nüfuzlu, böyük birliklərin, regional təşkilatların, beynəlxalq qurumların üzvüdür. Bundan başqa Azərbaycan Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlıq edir. Azərbaycan Respublikası indiyə qədər 200-yə yaxın beynəlxalq konvensiyaya qoşulmuşdur.

Azərbaycanın xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ədalətli yolla nizamlanması ən önəmli yerlərdən birini tutur. Daxili və xarici anti-Azərbaycançı qüvvələrin məkrli səyləri nəticəsində bir müddət Azərbaycanın haqq səsi dünyaya lazımınca çatmasa da, artıq Heydər Əliyevin milli maraq yönümlü səmərəli xarici siyasəti, gərgin diplomatik səyləri nəticəsində, Azərbaycan diplomatiyasının və parlamentimizin uğurlu fəaliyyəti nəticəsində Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti kökündən dəyişmiş, Azərbaycanın bu müharibədə ərazilərinin 20 faizini işğal olunması, bir milyona yaxın əhalisinin öz yurd-yuvalarından didərgin düşmələri, həmçinin Ermənistanın işğal müharibəsi nəticəsində Azərbaycanın üzləşdiyi bir sıra faciələr, mənəvi, sosial problemlər barədə dünya ictimaiyyəti kifayət qədər məlumatlandırılmış və bu məsələdə beynəlxalq təşkilatların, dünya dövlətlərinin Azərbaycana dəstəyi artmışdır. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində qazanılan əsaslı nailiyyətlər və irəliləyişlər, o cümlədən bu müharibədə Azərbaycanın işğala, soyqırıma, insan itkilərinə, ərazi, mənəvi və mədəni itkilərə, ağır dağıntılara məruz qalan ölkə kimi tanınıb və qəbul olunması, eyni zamanda Ermənistanın təcavüzkar, terrorçu tərəf kimi tanınması və qəbul olunması Heydər Əliyev diplomasiyasının, xarici siyasətinin ən böyük tarixi uğurudur.



Müstəqil, demokratik, sivil Azərbaycan dövlətinin yaradılması və ardıcıl inkişafı yolunda Heydər Əliyev hakimiyyətinin bu on ildə əldə etdiyi ən böyük nailiyyətləri, Heydər Əliyevin Azərbaycan dövləti qarşısında, xalqın gələcək inkişafı perspektivində ən mühüm tarixi xidmətləri sırasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dayanır. Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu əsasda üzv qəbul edilməsi 1993-cü ildən başlayaraq, demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan məqsədyönlü addımların, bütün sahələrdə islahatların, xüsusilə hüquqi islahatların, azad və şəffaf seçkilərin keçirilməsinin, vətəndaşların idarəetmə işlərində yaxından iştirakının təmin olunmasının, azad bazar iqtisadiyyatının yaranmasının, onun inkişaf etdirilməsinin, vətəndaşların hüquq və azadlıqlarının qorunması və təmin olunmasının, Azərbaycanın beynəlxalq aləmə, Qərbin sivil dəyərlərinə inteqrasiya yolu tutmasının, regionda sülhün, əmin-amanlığın və qarşılıqlı əməkdaşlığın ən etibarlı təminatçısına çevrilməsinin, demokratiya və inkişaf yolu tutmasının real məntiqi nəticəsidir.

Bu, Azərbaycanın dünya dövlətləri sırasında yerini möhkəmləndirməsi, demokratik dövlət kimi inkişaf etməsi, Avropa hüquq məkanına, Avropa inkişafına inteqrasiyası və beynəlxalq nüfuzunun güclənməsi baxımından böyük tarixi-siyasi olan hadisədir. Bu hadisənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunmasında, Ermənistanın təcavüzkar və terrorçu dövlət kimi tanınmasında indiyə qədər müəyyən rolu olubdur. Xüsusilə Azərbaycanın hüquqlarının bu beynəlxalq qurumda iki il ərzində layiqincə müdafiə olunmasında, onun demokratik hüquqi dövlət kimi tanınmasında və Qarabağ münaqişəsi məsələsinin gündəliyə gətirələrək, Ermənistanın işğalçı, terrorçu, separatçı ölkə kimi tanınmasında, Azərbaycanla bağlı Avropa ölkələrində müsbət rəylərin və fikirlərin formalaşmasında Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin və onun rəhbəri millət vəkili cənab İlham Əliyevin səmərəli fəaliyyəti, böyük xidmətləri olmuşdur.

Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsində Heydər Əliyevin dövlət və xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Böyük İpək Yolunun bərpası ilə bağlıdır. Respublika Prezidenti Böyük İpək Yolunun əhəmiyyəti barədə belə demişdir: "Bəşər sivilizaiyasının tarixində yollar, nəqliyyat xətləri həmişə çox böyük rol oynayaraq, həyatın bütün sahələrinə - siyasətə, iqtisadiyyata, mədəniyyətə təsir göstərmişdir. Bunun parlaq nümunələrindən və rəmzlərindən biri də bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini, avropalıların böyük coğrafi kəşflərini, orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətlərini özündə ehtiva etmiş qlobal, nadir hadisə olan Böyük İpək Yoludur.

Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaq."

Bu qədim Yolun bərpası Qərb və Şərq ölkələrinin kooperasiyası prinsipləri əsasında qarşılıqlı mənafelərinin üst-üstə düşməsi zəminində həyata keçirilir. Bu Yolun bərpası həmin dövlətlərin qlobal, siyasi-iqtisadi və siyasi problemlərinin həlli üçün real zəmin yaradır. Eyni zamanda Qərb ilə Şərqin iqtisadi maraqlarının bağlanmasında Böyük İpək Yolunun bərpasının misilsiz əhəmiyyəti vardır. Onun bərpasının xüsusi əhəmiyyəti məhz müxtəlif ölkələrin bir-birinə yaxın olması məqsədini güdür.

Bütün bu görülən işlərdə Prezident Heydər Əliyevin böyük əməyi və xidmətləri vardır. Bakıda keçirilən konfransda "Avropa-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" və daha 4 texniki sənəd imzalanmış və Bakı deklarasiyası qəbul olunmuşdur.

Daha sonra Avropa Birliyinin TRASEKA proqramı çərçivəsində Böyük İpək Yolunun bərpası layihəsinə həsr olunmuş və 7-8 sentyabr, 1998-ci il tarixdə Bakıda keçirilmiş beynəlxalq sammitdə 32 ölkənin və 13 beynəlxalq təşkilatın rəsmi nümayəndələri, o cümlədən bəzi dövlətlərin rəhbərləri də iştirak etmişlər. Belə bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi Heydər Əliyevin beynəlxalq aləmdə yüksək nüfuzu, problemin həllində misilsiz təşkilatçılıq məharəti ilə bilavasitə bağlıdır. Bu tədbir həm də Azərbaycanı TRASEKA proqramının həyata keçirildiyi mərkəzə çevirdi və ölkəmizin beynəlxalq aləmdə sülhpərvər, demokratik inkişaf meylli, dostluq və əməkdaşlıq meylli ölkə kimi tanıtdı.

Heydər Əliyevin uğurlu xarici siyasətinin daha bir nəticəsi Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın regional əməkdaşlıq birliyidir. Prezidentimizin uzaqgörən xarici siyasəti nəticəsində 1996-cı ilin yayında bu dörd ölkənin yeni dövlətlərarası qurumda birləşməsi ideyası irəli sürüldü. Sonralar bu ideya Lissabon Sammiti dövründə həmin dövlətlərin siyasi platformasının yekdilliyində sınaqdan çıxdı və GUAM adlı təşkilatın formalaşması üçün tam konkretlik yarandı. İttifaqın yaranması ilə bağlı dörd dövlət başçısı tərəfindən 1997-ci il noyabrın 10-da Fransanın Strasburq şəhərində saziş imzalandı. 1999-cu il aprelin 24-də isə bu quruma Özbəkistanda da qoşuldu və bu tarixdə Vaşinqtonda Heydər Əliyev quruma sədr seçildi.

Heydər Əliyevin xarici siyasət sahəsində ən böyük tarixi nailiyyətlərindən biri dünya azərbaycanlılarının həmrəyliyinə nail olmasıdır. Bu istiqamətdə hələ Naxçıvan Ali Məclisinin sədri işləyərkən fəaliyyətə başlamış Heydər Əliyevin təşəbbüsü ilə hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilmiş və sonra bu qərar Azərbaycan Respublikası Ali Soveti tərəfindən də təsdiq olunmuşdur.

Cənab Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı həmişə vaxt taparaq, bu ölkələrdə yaşayan soydaşlarımızla görüşmüş, onlarla bir çox mövzularda, xüsusilə də Azərbaycanın milli maraqlarına xidmət etmələri, Azərbaycanı dünyada fəal təbliğ etmələri, xaricdəki azərbaycanlıların milli-mənəvi birliyi istiqamətdə güclü iş aparılması barədə söhbətlər etmişdir. Bundan başqa hər il dekabrın 31-də Prezident kimi dünya azərbaycanlılarına müraciət edərək, onları milli həmrəyliyə dəvət etmiş, ölkənin problemlərinin dünya miqyasında, milli dəyərlərimizin təbliğində fəal rol oynamağa çağırmışdır. Möhtərəm Prezidentin bu istiqamətdə fəaliyyəti nəticəsində xalqımız bir çox tarixi nailiyyətlər əldə etmişdir. Xüsusilə də Azərbaycançılıq ideologiyasının dünya azərbaycanlıları tərəfindən milli ideologiya kimi qəbul edilməsində və vahid azərbaycan milləti ideyasının dərk olunmasında Heydər Əliyevin tarixi xidmətləri olduqca böyükdür. Nəticədə 2001-ci ildə Azərbaycanda Dünya Azərbaycanlılarının I qurultayı keçirilmiş və bu möhtəşəm tədbir dünya azərbaycanlılarının vahid milli ideya - azərbaycançılıq ətrafında sıx birləşməsində, milli maraqlar naminə həmrəy olmasında çox böyük əhəmiyyət daşımışdır. Bundan başqa Avropada yaşayan azərbaycanlıların Konqresinin yaradılması da mühüm nailiyyətlərdən hesab oluna bilər.

Bu gün dünya azərbaycanlılarının diasporunun yaradılması dövlətimizin xarici siyasətininin ən başlıca Məqsədlərindən biridir.

Yeri gəlmişkən vurğulayaq ki, azərbaycançılıq ideyasının müəllifi məhz Heydər Əliyevdir. Bu ideya məhz Prezident Heydər Əliyevin təşəbbüsü ilə müstəqil dövlətimizin əsas milli idelogiyası kimi qəbul olunmuş və milli ideologiyamızın əsas sütunu olmuşdur. Bu ideyanın isə ümummilli həmrəylik yaranmasında, milli mənlik şüurunun formalaşması və möhkəmlənməsində, siyasi sabitliyin bərqərar olmasında, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsində, xalqın bütün güc və səyinin ümummilli maraqlara, dövlət quruculuğuna yönəlməsində çox böyük əhəmiyyəti olmuşdur.